Musa NƏBİOĞLU
Əməkdar mədəniyyət işçisi

# USTAD AŞIQ ZİYƏDDİN KEŞƏLİ



Ziyəddin Məhəmməd oğlu Əliyev 1950-ci ildə Borçalıda – Marneuli rayonunun Keşəli kəndində anadan olub.

Aşıqlıq sənətini Ziyəddinə atası Məhəmməd kişi sevdirib. O özü aşıq olmasa da, bu sənətin vurğunu idi. Bir ustada qulluq etmək məqamı çatanda atası Ziyəddini Borçalının çox məşhur ustad aşıqlarından olan Xındı Məmmədin yanına apararaq, özünə şəyird götürməsini xahiş edib. Bir neçə gün Ziyəddini yoxladıqdan sonra, Xındı Məmməd onu özünə şəyird götürür. Hətta az sonra onun istedadını və qabiliyyətini görüb, özüylə bərabər məclislərə və dövlət tədbirlərinə, konsertlərə aparır, necə deyərlər, ağır məclislərdə, böyük səhnələrdə sınaqdan keçirir. Ziyəddin Məhəmməd oğlu da ustadının bu cür imtahanlarından hər dəfə üzüağ çıxmağı bacarır. Amma Ziyəddinin bu böyük ustadın yanında şəyirdliyi çox da uzun çəkmir, onun sonuncu şəyirdi olur – Xındı Məmməd dünyasını dəyişir. Bununla belə, az bir müddət yanında olsa da, ustadından çox şey öyrənə bilir Ziyəddin Məhəmməd oğlu.

Ustadı vəfat etdikdən sonra Aşıq Ziyəddin Borçalının digər ünlü ustad aşıqları ilə əlaqə saxlayır, onlarla tez-tez görüşərək məsləhətlər alır, bilmədiklərini öyrənir. Tez-tez Kamandar Əfəndiyevin yanında olur, Aşıq Sayadla dostluq edir.

Aşıq Ziyəddin 1983-cü ildən 1989-cuilədək Marneuli şəhərindəki Mədəniyyət evində yeniyetmələrə saz dərsi keçib. Eyni zamanda elin

toy-düyünündə, el şənliklərində, dövlət səviyyəsində keçirilən mədəni-kütləvi tədbirlərdə çıxış edir və həmişə də alqışlarla qarşılanır, tamaşaçı rəğbəti qazanır.

Bu gün Borçalıda ustad aşqı kimi tanınan Ziyəddin Keşəli bütün ustadlar kimi, həm də bədii yaradıcılıqla məşğul olur. Şeirləri dövri mətbuatda çap olunur, "Ruhani ruha dərmandır" (2000), "Telli sazdır yarım mənim" (2005) və "Ustad nəfəsi" (2016) adlı kitabları işıq üzü görüb.

Aşıq Ziyəddin Keşəli eyni zamanda bir ustad aşıq kimi, neçə-neçə gəncə sənətin sirlərini öyrədir. Onlardan Orxan İslam oğlu, Orxan Yırğançaylı, Tehran, Fazil, Mahir və digərlərini göstərmək olar.

Aşıq Ziyəddin Keşəli Borçalı aşıqlıq ənənəsinin kamil bilicisi olan ustad aşıq kimi tez-tez Azərbaycanda, Türkiyədə, Rusiyada və digər ölkələrdə keçirilən folklor festivallarında və digər tədbirlərdə iştirak edir. 2004-cü ildə Türkiyənin Sivas şəhərində keçirilən Aşıq Veysəlin anım günündə uğurlu çıxışına görə mükafata layiq görülüb.

Böyük ustad Aşıq Şenliklə bağlı 2018-ci ilin payızında Çıldırda çəkilən filmdə bu böyük ozanın obrazını yaratmaq da məhz aşıq Ziyəddin Keşəliyə həvalə olunub. Hazırda doğma kəndi Keşəlidə yaşayıb, sənətkar kimi fəaliyyətini uğurla davam etdirən ustad aşıq Ziyəddin Keşəli Gürcüstan aşıqlarının II və III qurultaylarının fəal iştirakçılarından olub.

Ziyəddin Keşəli Azərbaycan aşıqlarının son üç qurultayının iştirakçısı olub, Bakıda keçirilən Beynəlxalq Aşıq festivalında Borçalı aşıqlarını layiqincə təmsil edib. Dəfələrlə Türkiyədə, İranda, Azərbaycanda, Rusiyada və digər ölkələrdə Azərbaycan sazının qüdrətini nümayiş etdirib.

Ziyəddin Keşəlinin sənət qarşısındakı xidmətləri layiqincə qiymətləndirlib. Dəfələrlə fəxri fərman və diploplarla mükafatlandırılan ustad aşıq 2005-ci ildə Gürcüstan Prezidentinin sərəncamı ilə ölkənin ali mükafatlarından olan "Şərəf" medalı ilə təltif olunub.